# Azərbaycanda özbək ədəbiyyatının tərcüməsi və nəşri

**Gülnar Qasımlı**
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: gulnar0486@mail.ru
https://orcid.org/0000-0003-2352-335X

**Annotasiya.** Məqalədə Özbəkistan ədəbiyyatının Azərbaycanda öyrənilməsi, nəşri və tərcüməsi məsələlərindən bəhs edilir. Burada nəşr olunmuş toplu, antologiya və almanaxlar haqqında ümumi məlumatlar verilmiş, şair və yazıçıların kitablarının, konkret əsərlərinin tərcümə məsələlərindən bəhs olunmuşdur. Özbək ədəbiyyatına məxsus müəlliflərin və onların əsərlərinin Azərbaycan dilinə tərcüməsində iştirak etmiş şair və yazıçıların gördüyü işlərə nəzər salınmışdır. Məqalədə eyni zamanda, sovet dövründə və müstəqillik illərində bu istiqamətdə görülmüş işlər, həyata keçirilmiş tədbirlər, özbək ədəbi nümunələrinin Azərbaycanda nəşri işlərində xüsusi rolu olan tədbir və qurumlar haqqında ətraflı bəhs olunmuşdur.
**Açar sözlər:** özbək ədəbiyyatı, Azərbaycan ədəbiyyatı, tərcümə, şeir antologiyası, nəsr almanaxı, ədəbi əlaqələr, nəşr məsələləri

http://dx.doi.org/10.29228/edu.151
**Məqaləyə istinad:** Qasımlı G. (2020) *Azərbaycanda özbək ədəbi-bədii nümunələrinin tərcüməsi və nəşri məsələləri.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 296-302
**Məqalə tarixçəsi:** göndərilib – 27.03.2020; qəbul edilib – 06.04.2020

# Translation and publishing of the Uzbek literature in Azerbaijan

**Gulnar Gasimli**
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: gulnar0486@mail.ru
https://orcid.org/0000-0003-2352-335X

**Abstract.** The article discusses translation, publishing and studying issues of the Uzbek works in Azerbaijan. The article provides information about the published collections, anthologies, and deals with the translation of books and specific works of poets and writers. The works implemented by the poets and writers involved in the translation of Uzbek literature into Azerbaijani were viewed. At the same time, the article studies in detail the works done in this direction during the Soviet era and the years of independence, the implemented events, and institutions that have a special role in the publication of Uzbek literary works in Azerbaijan.
**Keywords:** Uzbek literature, Azerbaijani literature, translation, poetry anthology, prose almanac, literary relations, publishing issues

http://dx.doi.org/10.29228/edu.151
**To cite this article:** Gasimli G. (2020) *Translation and publishing issues of the uzbek literary-artistic examples in Azerbaijan.* «Comparative Literature Studies», Issue I, pp. 296-302
**Article history:** received – 27.03.2020; accepted – 06.04.2020

## Giriş / *Introduction*

Türk dünyasının qüdrətli dövlətlərindən biri olan qardaş Özbəkistan ədəbiyyatının Azərbaycanda tədqiqi və təbliği tarixi çox qədimdir. Özbək ədəbiyyatının dahisi Əlişir Nəvai Nizami Gəncəvi yaradıcılığından təsirlənərək, "Xəmsə" yazmış sənətkarlardandır. Lakin Əlişir Nəvai əsərinin ən böyük dəyərlərindən biri də odur ki, ilk dəfə türkcə "Xəmsə" yazılmışdır.

İstər orta əsrlərdə və sovet dövründə, istərsə də müstəqillik illərində hər iki ölkənin ədəbi əlaqələrinin qarşılıqlı inkişaf dinamikasını Almaz Ülvinin "Azərbaycan-özbək (cığatay) ədəbi əlaqələri (dövrlər, simalar, janrlar, təmayüllər)" [1] kitabından geniş izləmək mümkündür. Bu əsər ədəbi-mədəni faktlarla çox zəngindir və burada iki ölkə arasındakı 600 illik elmi-ədəbi tarixin hər anı izlənmişdir.

"Azərbaycanda özbək ədəbi-bədii nümunələrinin tərcüməsi və nəşri məsələləri" adlı yazını hazırlayarkən, həmin kitaba məhz bu səbəbdən müraciət etdik. "Özbək poeziyası Azərbaycan dilində", "Özbək nəsri Azərbaycan dilində", "Özbək poeziyasında Azərbaycan və Səməd Vurğun mövzusu", "Zülfiyyə lirikası və Azərbaycan mövzusu", "Qafur Qulam və Azərbaycan", "Özbək nəsrinin ilk dövrü", "40-cı illərdən sonrakı nəsr və tarixi roman janrı", "Dramaturgiya-teatr əlaqələri və ədəbi təsir məsələsi", "Maqsud Şeyxzadə taleyi və yaradıcılığı ədəbi əlaqələr müstəvisində" adlı bölmələrdə özbək ədəbi nümunələrinin Azərbaycanda tərcüməsi və nəşri məsələsi tam işıqlandırılmışdır. Həmin mənbəyə istinadən, bir neçə əsərin adını qeyd edək: "Üç qardaş" özbək xalq nağılı 1941 və 1972-ci illərdə Pənah Xəlilov, "Özbək nağılları" 1959-cu ildə, "Özbək xalq nağılları" 1987-ci ildə Ağababa Rzayev, "Özbək nağılları"nda 21 nağıl Ağababa Rzayev tərəfindən, "Özbək xalq nağılları"nda isə "Müsafir bəy", "Min hörük", "Atın-oy", "Ziyad Batır", "Mərd dost Qeyrət", "Fərhad və Şirin" və s. bu kimi 50 nağıl (kollektiv müəlliflərin tərcüməsi ilə) Azərbaycan dilinə tərcümə edilərək kitab halında nəşr olunmuşdur.

## Əsas hissə / *Main part*

1960-cı il 20-27 yanvar tarixlərində Özbəkistanda keçiriləcək "Azərbaycan həftəsi günlərinə" töfhə olaraq əvvəlcədən – 1958-ci ildə irihəcmli "Özbək ədəbiyyatı antologiyası", 1959-cu ildə "Özbək şeirləri" kitabları nəşr olunmuşdu ki, bu ədəbi hadisə hər iki ölkədə böyük sevinclə qarşılanmışdır. Görkəmli Azərbaycan yazıçısı Mehdi Hüseynin başçılığı ilə Azərbaycan nümayəndə heyəti qardaş ölkədə vətənimizi təmsil etmişdir. Daha sonra 22-23 sentyabr 1962-ci ildə isə Daşkənddə "Bakı günləri" keçirilmişdir. Bunların qarşılığı olaraq Azərbaycanda 1-7 iyun 1961-ci ildə "Özbək kitabları həftəsi", 13-14 oktyabr 1962-ci ildə "Daşkənd günləri", 10-15 avqust 1967-ci ildə "Özbəkistan SSR günləri" qeyd edilmişdir. Azərbaycanda keçirilən özbək ədəbiyyatı həftəsində Daşkənddən Bakıya görkəmli şair, yazıçı və ədəbiyyatşünaslar gəlmişlər. Nəticə olaraq, 23 müəllifin 120 şeiri yer alan "Özbək şeirləri" almanaxı işıq üzü görmüşdür. 5 iyun 1979-cu ildə "Azərbaycanda Özbəkistan ədəbiyyatı və incəsənəti günləri", 1980-ci ildə isə "Özbəkistanda Azərbaycan ədəbiyyatı və incəsənəti günləri" təntənə ilə qeyd edilmişdir. Bu ədəbiyyat bayramında, 1979-cu ildə "Nəğməli Özbəkistan" şeir və "Nurlu diyar" nəsr almanaxları oxucuların ixtiyarına verilmişdir" [1, s.104].

Ayrı-ayrı müəlliflərdən Qafur Qulam, Həmid Alimcan, Aybək Abdulla Qəhhar Həmid Qulam, Mirtemir və Zülfiyyə, Turab Tölə, Rəmz Babacan, Camal Kamal, Əqsəd Muxtar, Abdulla Aripovun kitabları kütləvi tirajla Azərbaycanda nəşr olunmuş və ədəbi tənqidin diqqətini cəlb etmişdir. Buna

nümunə olaraq 1979-cu ildə Yaşar Qasımovun tərcümə etdiyi İbrahim Qafurovun "Sözün işığı" kitabında özbək şairlərindən Qafur Qulam, Həmid Alimcan, Aybək, Maqsud Şeyxzadə, Mirtemir və Zülfiyyə, yazıçılarından və Şərəf Rəşidov haqqında elmi-fəlsəfi, ədəbi-tənqidi araşdırmaları göstərə bilərik.

İki xalqın oğlu kimi tanınan Maqsud Şeyxzadənin "Əks-səda", "Cəlaləddin Mənquberdi", "Mirzə Uluğbəy", ikicildlik "Seçilmiş əsərləri", "Daşkəndnamə" poeması (memuar) Nəriman Həsənzadə, Nəbi Xəzri, Eyvaz Borçalı, Xəlil Rza Ulutürk tərəfindən Azərbaycan dilinə tərcümə olunaraq nəşr edilmişdir.

Özbək poeziya nümunələrini dilimizə çevirən Rəsul Rza, Süleyman Rüstəm, Zeynal Cabbarzadə, Xəlil Rza, Qabil, Qasım Qasımzadə, Məmməd Aslan, Səyavuş Sərxanlı, Əhəd Muxtar, Nüsrət Kəsəmənli, Ağacavad Əlizadə, Ağasəfa, Vaqif Hüseynov, İsgəndər Coşğun, Şəkər Aslan, Cavad Zeynal, Müzəffər Şükür və başqaları böyük xidmət göstərmişlər: "Özbək ədəbiyyatı antologiyası" (1958) "On beş yarpaq" (1975) və "Nurlu diyar" almanaxlarında xeyli sayda özbək şair və yazıçıların əsərlərindən nümunələr Azərbaycan oxucularına ərmağan edilmişdir.

Ümumiyyətlə, 2008-ci ilə qədər tərcümə və nəşr olunmuş əsərlər haqqında həmin mənbədən öyrənə bilirik.

1985-ci ildə isə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Ədəbi əlaqələr" seriyasından nəşr etdirdiyi "Azərbaycan-özbək ədəbi əlaqələrindən səhifələr" [2] elmi məqalələr toplusunda Azərbaycan və özbək alimlərinin 16 elmi tədqiqat məqaləsi yer almışdır. "16 elmi tədqiqat məqaləsindən ibarət olan toplu filologiya elmləri doktoru A.Hacıyevin "Tarixi inkişafın tipologiyası məsələləri" adlı araşdırması ilə açılır. Özbəkistan EA-nın akademiki Vahid Zahidov "Biz həmişə birlikdəyik" məqaləsində 1960 və 1980-ci illərdə hər iki ölkədə keçirilən ədəbiyyat və incəsənət günlərinin dostluq və qardaşlıq tellərinin, ədəbi əlaqələrin möhkəmlənməsi baxımından tarixi əhəmiyyətindən, bu görüşlərin Nizami, Nəvai, Füzuli dövründən başlayan zamanından söz açır, eyni zamanda, XX əsr özbək ədəbiyyatı və incəsənətinin inkişafında Azərbaycan ədəbi mühitinin böyük təsirindən, rolundan danışılır. Azad Nəbiyevin "Dastanda qəhrəman süjetin ənənələri" araşdırmasında "Koroğlu" və "Goroğlu" dastanlarının müqayisəli təhlilindən, folklor yaxınlığından maraqlı elmi-nəzəri mülahizələri qeyd olunur. Qafar Kəndli "Xaqani Şirvani və Xarəzmşahlar ocağı", Həmid Araslı "Nəvainin fəlsəfi qəsidələrində Xaqani təsiri", Cənnət Nağıyeva "Nizami sənətinin dahi tərənnümçüsü", Pənah Xəlilov "Həmzə Həkimzadə Niyazi və Azərbaycan ədəbiyyatı", Qulamhüseyn Əliyev "Qardaş ədəbiyyatların mövzu və obrazlar birliyi", Xəlil Rza "Maqsud Şeyxzadə yaradıcılığında Azərbaycan-özbək ədəbi ənənələri", Şamil Qurbanovun "Zülfiyyənin zərif poeziyası" kimi elmi-nəzəri tədqiqatlarında qoyulan problemlər aktuallığı ilə səciyyəvi xarakter daşıyırlar. Qeyd etdiyimiz bu araşdırma toplusunda özbək alimlərinin də yazılarına yer ayrılmışdır: S.Alimov "Vəzn ənənəsi və tərcümə", Səidə Nərzullayeva "Nizami və Nəvainin "Leyli və Məcnunu", Həsənxoca Məhəmmədxocayev "Füzuli istedadının pərəstişkarları", Şirəli Turdıyev "XX əsrin əvvəlləri özbək–Azərbaycan ədəbi əlaqələri", Sabir Əliyev "1917-1929-cu illərdə Özbəkistanda Azərbaycan teatrı və dramaturgiyası" və Ənvər Cabbarovun "Müasir əlaqələr səhifələrindən qeydlər" məqalələrində adlarından da göründüyü kimi, olduqca maraqlı və tarixlə səsləşən mövzulardan bəhs edilir" [1, s.107-108].

Əlişir Nəvainin ölkəmizdə nəşr tarixinə gəldikdə isə, yuxarıda adıçəkilən monoqrafiyada göstərildiyi kimi, "1902-ci ildə Baxçasarayda onun "Mühakimətül-lüğəteyn" əsəri İ.Qaspirinskinin giriş məqaləsi ilə, 1926-cı ildə isə "Münşaat" və "Vəqfiyyə" əsərləri ilk dəfə Bakıda nəşr edilmişdir. "Sirlər xəzinəsi", "Fərhad və Şirin", "Leyli və Məcnun", "Yeddi səyyarə" və "İskəndərin divarı" adlı əsərlərdən ibarət "Xəmsə"si əvvəllər hissə-hissə, daha sonra isə bütövlükdə Azərbaycan türkcəsinə uyğunlaşdırılmışdır. Ə.Nəvainin "Yeddi səyyarə" əsərindən iki nağıl 1979-cu ildə Ələkbər Ziyatayın orijinaldan tərcüməsi ilə nəşr olunmuşdur. 1948-ci ildə Məmməd Rahim, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Ələkbər Ziyatay və Əliağa Vahidin tərcüməsində "Fərhad və Şirin" əsəri Azərbaycan dilində çapdan buraxılmış, 1968-ci ildə əvvəlki tərcümə yenidən nəşr olunmuşdur. Əlişir Nəvainin 1975-ci ildə işıq üzü görən 96 səhifəlik "Şeirlər" kitabını Süleyman Rüstəm özbəkcədən dilimizə çevirmiş və

"Əlişir Nəvai" adlı müqəddimə yazmışdır. 2004-cü ildə isə "Əlişir Nəvai. Seçilmiş əsərləri" kitabı 1968 və 1979-cu ildəki nəşrləri əsasında təkrar 25000 tirajla işıq üzü görmüşdür" [1].

Əlaqələrin davamı olaraq, Azərbaycanın Xalq şairi Xəlil Rza Ulutürkün 1992 və 2005-ci illərdə "Turan çələngi", 2000-ci ildə "Türkün dastanı" və"Dünyaya pəncərə" kitablarının nəşri diqqətəlayiqdir. "Xəlil Rza Ulutürkün tərcüməçilik sənəti şairin yaradıcılığında xüsusi yer tutur. "Qardaşlıq çələngi", "Dünyaya pəncərə" adlı tərcümə kitabları təsdiq edir ki, Xəlil Rza Ulutürk olduqca zəhmətkeş və məhsuldar tərcüməçi olmuşdur. Tərcümə sənətinin elmi-nəzəri problemlərindən bəhs edən "Şairlik və bədii tərcümə", "Bədii tərcümə bədii kəşf olmalıdır", "Tərcümə və bədii dil", "Poetik tərcümədə şairliyin elmi filoloji əməyə arxalanması zərurəti" və s. kimi məqalələrindən bəlli olur ki, o, bu sənətin sirlərini dərindən mənimsəmişdir. Yuxarıda adlarını qeyd etdiyimiz kitablara nəzər yetirdikdə aydın olur ki, Xəlil Rza Ulutürk dünya ədəbiyyatını dərindən öyrənmiş və həmin ədəbiyyatın ən gözəl nümunələrini dilimizə çevirmişdir. "Dünyaya pəncərə" kitabında yunan, macar, bolqar, çex, alman, yapon, fransız, ingilis, italyan, əfqan, hind-ümumilikdə 28 xalqın poeziya nümunələri Azərbaycan tərcümə xəzinəsinə daxil olmuşdur. Bu kitabda elə ölkələrdən poetik tərcümələr vardır ki, həmin ölkələrin bədii nümunələri məhz ilk dəfə Xəlil Rza Ulutürkün tərcüməsində Azərbaycan ədəbi tərcümə fonduna daxil olmuşdur. Bu kitabdan əvvəl isə nəşr olunmuş "Qardaşlıq çələngi" almanaxına o vaxtkı SSRİ xalqlarının poetik nümunələri daxil edilmişdir. Həmin almanax 10 il sonra "Turan çələngi" adı ilə daha mükəmməl, daha sanballı şəkildə nəşr olundu. Kitabdakı əsərlər sırf türkdilli xalqların özbək, qazax, qırğız, krım türkləri, tatar, Qətran Təbrizi, Xaqani, Gəncəvi, Tusi, Saib Təbrizi, Vazeh, Şəhriyar, Beqdaş, Rudəki kimi klassik Azərbaycan mütəfəkkirlərinin (fars dilindən) əsərlərindən ibarətdir. Xəlil Rza Ulutürkün türkdilli xalqların ortaq sərvətlərindən biri olan XI əsr yadigarı – "Qutadqu-bilik" poemasına müraciəti ulu möhtəşəm abidəmizə məhəbbətindən, eləcə də, əsərdə qoyulan problemlərə, fəlsəfi və siyasi məsələlərə bəşəri yanaşmada müəllifin – Yusif Balasaqunlunun elmi təfəkkürünə heyranlığından yaranmışdır. İnsanın eşq və elmlə bütün sədləri yaracaq əzmini yüksək yaradıcılıq qüdrəti ilə şərh edən, nəzmə çəkən müəllif fikirləri Xəlil Rza Ulutürk qəlbində alovlanan türkçülük məhəbbətinə doğmadır, tanışdır. Bu əsər ədəb, ərkan, dövlət, dövlət birliyi, insan əzəməti və s. haqqında ibratəmiz bir məktəb, fəlsəfə dünyasıdır (bu barədə monoqrafiyanın ilk fəslində müfəssəl yazılmışdır). Səkkakinin "Uluğbəyin mədhi" əsərini isə çox güman ki, Maqsud Şeyxzadənin "Mirzə Uluğbəy" faciəvi dramını tərcümə və tədqiq edərkən dilimizə çevirmək ehtiyacını duymuşdur. Bu ehtiyac isə dünyanın ən böyük astroloqu, ən adil hökmdarı Uluğbəyə və Uluğbəy sarayının şairi Səkkaki müdrikliyinə məhəbbətdən yaranmışdır" [1, s.252-253].

2007-ci ildə isə Akif Azalp "Turan havası" kitabını nəşr etdirmişdir. "Akif Azalp iki dildə - Azərbaycan və özbək dillərində yazıb-yaradır. Onun "Vətən" nəşriyyatında yeni nəşr olunmuş dördüncü – "Turan havası" kitabında hər iki dildə müxtəlif illərdə yazdığı şeirləri, onun tərcüməsində çağdaş özbək şeirinin tanınmış, nüfuzlu nümayəndələrinin əsərlərindən nümunələr, həmçinin özbək, krım, xakas və şor xalq mahnılarından tərcümələr daxil edilmişdir. Xalq şairi Fikrət Qoca kitaba yazdığı Ön sözdə qeyd edir ki, "rəngarəng mövzulu, maraqlı dünyagörüşünə, düşüncə tərzinə malik olan şairin əsərləri ədəbiyyatımızda yeni səs, yeni nəfəsdir" [6, s.178].

"Turan havası" kitabında "çağdaş özbək şeirindən Akif Azalpın tərcümələri daxil edilmişdir - Xalq şairləri Abdulla Aripov, Erkin Vahidov, Osman Qoçqar, Qoşqar Narqabil, Xasiyət Rüstəmova, İqbal Mirzədən olan seçmə tərcümələrdə "Azərbaycan", "İrəvan küçəsində", "Bahar günlərində payız havası", "Gülmə, gülmə", "Naməlum bakirə" şeirləri Azərbaycana, Azərbaycan gözəlinə, "lirik mən"in düşüncələrinə həsr olunmuşdur. Abdulla Aripovun "Azərbaycan" şeirilə Azərbaycan dilində indyəcən bir neçə şairin tərcüməsində rastlaşmışıq. Hər birinin öz ruhu, öz ahəngi vardır. Xalq şarimiz Xəlil Rza Ulutürkün A.Aripovdan olan bir xeyli tərcümələri könlümüzü sevindirib. Erkin Vahidovun yaradıcılıq nümunələri ilə həm Xəlil Rza Ulutürkün, həm də digər şairlərin tərcüməsində ilkin tanışlığımız olubdur. Akif Azalp da öz tərcümə səhifəsində bu şairə xüsusi yer ayırmışdır" [6, s.180-181]. .

Müstəqillik dönəmində işıq üzü görmüş kitablardan 1993-cü ildə Xalq yazıçısı Anarın “Yazıçı” nəşriyyatında nəşr etdirdiyi “Türkün 101 şairi” kitabını göstərə bilərik. Həmin kitabda özbək yazarlarından Rauf Pərfinin “Duyumlar” əsəri A.Bağırovun, Məhəmməd Salihin “Əgər bu sinəmə”, “Gecə”, “Ona ağı deyib” əsərləri V.Cəbrayılzadənin çevirməsində yer almışdır.

Bu əlaqələr müstəqillik illərində daha sıx şəkildə davam etdirilmiş, tərcümə və nəşr məsələləri iqtisadi çətinliklərə baxmayaraq dayandırılmamışdır. Azərbaycanda özbək əsərlərinə aid tərcümə, tərtib, araşdırma və digər bu kimi işlərin aparılmasında Xəlil Rza Ulutürkün, İsa Həbibbəylinin, Teymur Kərimlinin, Paşa Əlioğlunun, Tərlan Quliyevin, Kamil Vəliyevin, Akif Bağırovun, Yaşar Qasımbəylinin, Ramiz Əskərin, Almaz Ülvinin, İlqar İlkinin, Şahlar Dağlaroğlunun, Əkbər Qoşalının, Səlim Babullaoğlunun xidmətləri çoxdur.

“XX əsr özbək şeiri antologiyası”nda (2009) özbək yazarlarından – Çolpan, Elbək, Batu, Qafur Qulam, Aybək, Uyğur, Maqsud Şeyxzadə, Mirtemir, Zülfüyə, Şükrulla, Mirəziz Əzəm, Həmid Alimcan, Osman Nasir, Tahir Qəhhar, Fəxriyyə, İqbal Mirzə, Səlim Aşur, Eşqabil Şükür (50 müəllifin əsəri), “XX əsr Azərbaycan şeiri antologiyası”nda (2013) isə Azərbaycan yazarlarından Mirzə Ələkbər Sabirdən tutmuş, ta gənc Ülvi Bünyadzadəyə qədər (60 müəllifin əsəri) şairlər haqqında qısa məlumat və poetik nümunələrindən tərcümələr (kollektiv müəlliflər) daxil edilmişdir.

Qeyd edək ki, əslində elmi-ədəbi hadisələr iki ölkə arasındakı ədəbi-mədəni, siyasi-iqtisadi əlaqələrin inkişafına xidmət edir.

Ramiz Əskər 2011-ci ildə Zəhirəddin Məhəmməd Baburun “Seçilmiş əsərləri” və “Baburnamə”sini, Sultan Hüseyn Bayqaranın “Divan”ını (2011), Füzuli Bayat Zəhirəddin Məhəmməd Baburun “Baburnamə”ni (2011) tərcümə edərək nəşr etdirmişlər. Mətbuatdan xəbər verildiyi kimi, “Ramiz Əskər Əlişir Nəvainin “Xəmsə”sini Azərbaycan dilinə tərcümə edib”. Müəllifin “Əlişir Nəvai və onun “Xəmsə” adlı kitabçası 2020-ci ildə nəşr edilmişdir.

Bunlarla yanaşı, Azərbaycan ədəbiyyatının Özbəkistanda nəşri də gündəmdən düşməyib. İlk dəfə 2014-cü ildə Məhsəti Gəncəvi, Heyran Xanım, Xurşudbanu Natəvanın şeirlərindən ibarət “Eşq içində pərvanələr” kitabı Xalq şairi Aydın Hacıyevin tərcüməsində özbək oxucularına təqdim olunmuşdur. Kitabın məsul katibi professor Həmdulla Baltabayev, tərtibçiləri isə A.Ülvi və Y.Qasımbəylidir. Həmçinin 2014-cü ildə çap olunmuş “Ömürdən uzun gecə” ədəbi-bədii kitabında Azərbaycan yazarlarının əsərləri də yer alıb.

2016-cı ildə Daşkənddə “Kamalak-Press” nəşriyyatında “Özbək ədəbiyyatı və Azərbaycan (tədqiqatlar, ədəbi portretlər, söhbətlər)” kitabı nəşr olunmuşdur. Kitabın elmi redaktoru və Ön sözün müəllifləri professor Qazaqbəy Yoldaşev və Sırdərya Utanova, rəyçisi isə Erqaş Açilovdur.

2018-ci ildə Azərbaycan və özbək dillərində Daşkənddə çap olunan “Özbək şeir çələngi”nin [3] tərtibçisi və uyğunlaşdıranı Ş.Dağlaroğlu və Ş.Qasımova, rəyçiləri N.Cəfərov və A.Ülvidir.

Cəlil Məmmədquluzadənin hekayələri Osman Quçkarın tərcüməsində akademik İsa Həbibbəylinin Ön sözü ilə 2019-cu ildə “Poçt qutusu” adı ilə Daşkənddə “Mümtaz” nəşriyyatında kitab halında çap olunmuşdur.

2019-cu ildə Qoşqar Narqabilin “Xoşbəxtliyin bazarı varmı, yaxud beş dul və bir rəis” pyesini A.Ülvi “Qoşqar Narqabilin həyat və yaradıcılığına dair etüdlər” adlı ön sözlə birlikdə nəşr etdirmişdir.

2019-cu ildə özbək şairlərinin Nəsimi haqqında yazdığı şeirlərdən ibarət “Məndə sığar iki cahan” kitabı da işıq üzü görmüşdür (nəşrə məsul Erqaş Açilov). Elə həmin il Ü.Bünyadzadənin “Əlvida” kitabının X.Rüstəmin tərcüməsində çap olunmasını da ədəbiyyatımızın qardaş ölkədə təbliği sırasına əlavə edə bilərik.

Hər iki ölkənin müstəqillik qazanmasından sonra bir sıra qurumlarının, xüsusilə Elmlər Akademiyalarının, Yazıçılar Birliklərinin əməkdaşlıqları davam etmişdir. Bu istiqamətdə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun, Azərbaycanın Türk Xalqları ilə Əməkdaşlıq Mərkəzinin, Dünya Gənc Türk Yazarlar Birliyinin, Daşkənddə “Azərbaycan evi”nin, Beynəlxalq Türk Akademiyasının fəaliyyətini ayrıca diqqətə çatdırmaq lazımdır. Eyni zamanda, Daşkənddə fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin də yazıçı və şairlərimizin əsərlərinin

tərcüməsi və təbliği sahəsindəki genişmiqyaslı fəaliyyəti yüksək qiymətləndirilməyə layiqdir. Bundan başqa, Azərbaycan tərəfdən Xəlil Rza Ulutürk, Almaz Ülvi, Ramiz Əskər, Samir Abbasov, Qulu Kəngərli, Yaşar Qasımbəyli, Akif Azalp və başqalarının özbək ədəbiyyatının tərcümə olunması və nəşr etdirilməsi istiqamətində göstərdikləri xidmətlər tarixin səhifələrinə çevrilmişdir. AZƏRTAC-ın Orta Asiya üzrə müxbiri kimi iyirmi ildən çoxdur ki, Daşkənddə yaşayan Qulu Kəngərlinin Azərbaycan və özbək yazıçı və şairləri arasında yaratdığı əlaqələr, tərcümə üçün əsərlərin təşviq etdiyi bələdçilik işi hər iki ölkə üçün əhəmiyyətli olmuşdur.

Hələ sovet dönəmində anadan olmasının 70 illiyi keçirilən görkəmli şair, dramaturqnın və elm xadimi Maqsud Şeyxzadənin 2008-ci ildə 100 illiyi, 2019-cu ildə isə 110 illiyi Azərbaycanda və Özbəkistanda geniş miqyasda qeyd edilmişdir. 2019-cu ildə "İki xalqın oğlu Maqsud Şeyxzadə" [4] kitabı onun 110 illiyi münasibətilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının qərarına əsasən akademik İsa Həbibbəylinin elmi redaktorluğu və Ön sözü ilə çap olunmuşdur.

Vurğuladığımız kimi, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun bu istiqamətdə apardığı işlər də danılmazdır. 2019-cu ildə nəşr olunmuş "Azərbaycanca-özbəkcə, özbəkcə-Azərbaycanca lüğət" kitabının (iki dildə hazırlayan müəlliflər İsmayıl Məmmədli, Almaz Ülvi, Babaxan Şərif və Şahistə Kamranlı) İnstitutda təqdimat mərasimi keçirilib. Eyni zamanda, A.Ülvi və Y.Qasımbəylinin akademik İsa Həbibbəylinin 70 illiyinə həsr etdikləri "Ustoz" [5] adlı kitabları Obidjon Şəfiyevin tərcüməsində "Mümtoz söz" nəşriyyatında professor Həmidulla Baltabayev tərəfindən nəşr edilmişdir. 2020-ci ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının qərarına əsasən akademik İsa Həbibbəylinin elmi redaktorluğu ilə Əlişir Nəvainin "Hikmətli sözlər" əsəri Azərbaycan və özbək dillərində çap olunub. Əsəri A.Ülvi, Y.Qasımbəyli, A.Azalp tərcümə ediblər. 2020-ci ildə İnstitutda Özbəkistan Respublikasının Azərbaycandakı Səfirliyi və Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti ilə birlikdə keçirdikləri Əlişir Nəvainin anadan olmasının 579 illiyinə həsr olunmuş "Əlişir Nəvai ədəbi və elmi irsinin öyrənilməsi" adlı Beynəlxalq elmi konfransın materialları nəşr edilmişdir.

## Nəticə / *Conclusion*

Bu iki ölkənin ədəbi əlaqələrini müstəqillik işığında gözdən keçirərkən belə bir təəssürat yaranır ki, Azərbaycan-özbək ədəbi əlaqələri türk kökənli xalqlar kimi daim inkişaf etmişdir. Müstəqillik illərində həyata keçirilən sanballı işlərin özülü sağlam və möhkəmdir.

## Ədəbiyyat / *References*


1. A.Ülvi. Azərbaycan-özbək (cığatay) ədəbi əlaqələri. Bakı, "Qartal", 2008.
2. Azərbaycan-özbək ədəbi əlaqələrindən səhifələr. Bakı, "Elm", 1985.
3. Özbək şeir çələngi (tərtibçisi və uyğunlaşdıranı Ş.Dağlaroğlu və Ş.Qasımova). Daşkənd, 2018.
4. İki xalqın oğlu Maqsud Şeyxzadə. Bakı, "Elm və təhsil", 2019.
5. Ustoz: akademik İsa Həbibbəylinin anadan olmasının 70 illiyi münasibətilə. Müəlliflər A.Ülvi və Y.Qasım. Daşkənd, "Mümtaz söz", 2019.
6. A.Ülvi. Ədəbi duyğular (məqalələr). Bakı, "Nurlan", 2008.

## Перевод и издание узбекской литературы в Азербайджане

**Гюльнар Гасымлы**
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: gulnar0486@mail.ru

**Резюме.** В статье рассматриваются вопросы перевода, публикации и изучения узбекских произведений в Азербайджане. Статья содержит информацию об опубликованных сборниках, сборниках, а также занимается переводом книг и конкретных произведений поэтов и писателей. Были просмотрены работы, выполненные поэтами и писателями, занимающимися переводом узбекской литературы на азербайджанский язык. В то же время в статье подробно рассматриваются работы, выполненные в этом направлении в советское время и годы независимости, проводимые мероприятия и учреждения, которые играют особую роль в издании узбекских литературных произведений в Азербайджане.
**Ключевые слова:** узбекская литература, азербайджанская литература, перевод, поэтическая антология, прозаический альманах, литературные связи, издательские проблемы